# KİTABXANA-İNFORMASİYA RESURSLARININ KOMPLEKTLƏŞDİRİLMƏSİNİN NƏZƏRİ ƏSASLARI

**Hacı Qasımlı**
*Kitabxana resursları və informasiya-axtarış sistemləri kafedrasının magistrantı*
*E-mail:haci_qasimli@list.ru*

***Kitabxana-informasiya resurslarının komplektləşdirilməsinin nəzəri əsasları***
***Xülasə:****Məqalədə kitabxana-informasiya resurslarının komplektləşdirilməsinin nəzəri əsasları ətrafında elmi ümumiləşdirilmə aparılaraq, kitabxana-informasiya resurslarının müasir şəraitdə inkişafının əsas istiqamətləri təhlil edilmişdir.*
***Теоретические основыкомплектации библиотечно-информационных ресурсов***
***Резюме:*** *В статье речь идет об общих вопросахкомплектации библиотечно-информационных ресурсов, формировании и развитии теории комплектации, а также технологии комплектации, реализуемые в библиотеках Азербайджана.*
***The foundation of the theory of completeness library and information resources***
***Summary:*** *The article summarizes the general issues of packaging library and information resources, the formation, formation and development of the theory of completeness, packaging technology, implemented in various libraries of the country.*
***Açar sözlər:*** *kitabxana-informasiya resursları, komplektləşdirmə, komplektləşdirmə nəzəriyyəsi.*
***Ключевыеслова:*** *Библиотечно-информационные ресурсы, комплектация, теория комплектации.*
***Key words:*** *Library-information resources, completeness, the theory of completeness.*

**Giriş.** Azərbaycanın müstəqilliyi şəraitində, bir sıra sahələrdə irəliləyiş olduğu kimi, xalqımızın mədəni, təhsil və elmi səviyyəsinin də yüksəlməsində müşahidə olunan müasir dövr məhz informasiyalaşdırma əsrinə təsadüf etdiyindən kitabxanaların qarşısında cəmiyyətin elmə, biliyə olan tələbatını ödəmək və tədqiqatçılar tərəfindənkitabxana-informasiya resurslarının komplektləşdirilməsi məsələlərini hərtərəfli tədqiq etmək, kitabxanaların resurs bazasının kompleks şəkildə öyrənmək,oxuculara daha yüksək səviyyəli xidmət göstərmək vəzifələri qoymuşdur.

Kitabxana-informasiya resurslarının komplektləşdirilməsi hər şeydən əvvəl ölkədə fəaliyyət göstərən kitabxanaların iqtisadi, mədəni, habelə oxucu profilinə uyğun həyata keçirilməlidir. Kitabxana-informasiya resurslarının komplektləşdirilməsi onun formalaşdırılmasının tərkib hissəsi olmaqla kifayətlənmir, həmçinin bütün kitabxana prosesinin təşkilinin əsasını təşkil edir. Kitabxana-informasiya resurslarınınkomplektləşdirilməsi və təşkili, oxuculara ədəbiyyat verilişi və tövsiyəsi, kitabxana-biblioqrafiya biliklərinin təbliğinin



ənənəvimetodu ilə bərabər, elektron resursların üzə çıxarılması, uçotu, onlardakı dəyişikliklərin izlənilməsi, istifadəçilərə informasiyanın əldə olunması sahəsində özünəxidmətin təşkili forması hesab edilir.

**Məsələnin qoyuluşu.** Kitabxana-informasiya resurslarının tərkib hissələrini hərtərəfli, lazımi səviyyədə öyrənmədən, təhlil etmədən komplektləşdirmə işinin səmərəliliyini təmin etmək və inkişaf perspektivlərini göstərmək qeyri-mümkündür.

Sənəd-informasiya resursları ayrı-ayrı kitabxanaların sadəcə formal birləşməsi deyil, o, düşünülmüş, planlı və elmi şəkildə seçilmiş zəngin kitab sərvətindən ibarətdir. Azərbaycan Respublikasının "Kitabxana işi haqqında" qanununda da qeyd edilir ki, "Kitabxana fəaliyyətinin əsas istiqamətləri sənəd-informasiya fondlarının formalaşmasından, mühafizəsindən və bu materialların hüquqi və fiziki şəxslərə istifadəyə verilməsindən, kitabxanalarda toplanıb saxlanan informasiya mübadiləsinə imkan verən vahid informasiya məkanının yaradılmasından ibarətdir [1,s. 3].

Buradan belə bir fikir meydana çıxır ki, qanunda ilk olaraq kitabxana fondunun formalaşması göstərilmişdir. Məhz buna görə də kitabxana-informasiya resurslarının bütün xarakterik cəhətləri bilavasitə onun formalaşması prosesində müəyyənləşir. Belə ki, formalaşma prosesində istər fondun ümumilikdə komplektləşdirmə keyfiyyətinin və istərsə də həcm səviyyəsinin gələcəkdə nəzərə alınması bilavasitə kitabxana fəaliyyətinin tənzimləşdirilməsi və inkişafı ilə bağlıdır.Müasir dünyada kitabxanalarda sənədli informasiyanın komplektləşdirilməsi, saxlanılması və təqdim edilməsi formaları daha sürətlə transformasiya olunur. Məhz bundan asılıdır ki, kitabxana-informasiya resurslarının çap əsərləri ilə dolğun komplektləşdirilməsi müəyyən ərazi baxımından kitabxanaların sıx koordinasiyası ilə bağlıdır. Müasir dövrdə Respublikanın əksər kitabxanaları bütün informasiya mübadiləsini qabaqcıl texnologiyalara əsaslanaraq qurmağı planlaşdırır.Bunun üçün də məlumatların toplanıb saxlanılması, axtarış sistemləri və informasiyaların ötürülmə qaydalarının qabaqcıl olması ilə yanaşı, kitabxana–informasiya və internet istifadəçisinin "görüb oxuya bildiyi" də vahid formatda olmalıdır [4,s. 12].

Elmin nəzəriyyəsinə əsaslanaraq, təsnifat bölgüsünə əsasən komplektləşdirmənin 3 növündən istifadə edilir ki, bunlara kitabxana-informasiya resurslarının cari, yeni çıxan, habelə əvvəlki ildə nəşr edilmiş sənədlərlə tamamlanması; retrospektiv komplektləşdirmə kitabxana-informasiya resurslarının çatışmayan və keçmiş illərdə çap olunan nüsxələrlə tamamlanması; rekomplektləşdirmə, yəni fondun köhnəlmiş, sıradan çıxmış, qeyri-profilli artıq nüsxələrdən təmizlənməsi formasında həyata keçirilir.

Qeyd etdiyimiz növlərin hər biri özlüyündə "komplektləşdirmə" anlayışının ikitərəfli cəhətlərini əks etdirir ki, bu da kitabxana-informasiya resurslarına daxil olan və oradan xaric edilən sənədlərin tənzimlənməsini təmin edir. Komplektləşdirmənin ən mühüm növünü cari komplektləşdirmə təşkil edir ki, burada kitabxanalar bütün yeni sənədlərin, daha doğrusu, aktual nəşrlərin əldə

edilməsinə nail olurlar. Retrospektiv komplektləşdirmə isə kitabxana-informasiya resurslarında müşahidə olunan boşluqları aradan qaldırır. Bu boşluqlar cari komplektləşdirmədə buraxılan nöqsanlar əsasında yaranır, ümumi resursların profilinin dəyişməsi, sənədlərin sıradan çıxması və ya itməsi ilə bağlı olur. Onlar sənəd kütləsinin tərkibcə öyrənilməsi yolu ilə müəyyənləşdirilir. Boşluqların meydana çıxarılmasının və doldurulmasının xüsusən böyük elmi kitabxanalar üçün mühüm əhəmiyyəti vardır. Rekomplektləşdirmədə istifadə edilməyən və az istifadə olunan sənədlər nəzərə alınır. Burada onların qiyməti, nəşr ili, tirajı, növü və s. müəyyənləşdirici rol oynamır.

Faktik olaraq komplektləşdirmənin bütün növləri cari iş prosesində eyni zamanda həyata keçirilir. Bu dövrdə kitabxana-informasiya resursları fasiləsiz yeniləşdirilir, yeni vəzifələrə və oxucu marağına uyğun olaraq müntəzəm qaydaya düşür, fəaliyyət göstərir və dinamik qayda da müasir dövrün tələbinə uyğuninkişaf edir.

**Məsələnin izahı.** Kitabxana-informasiya resurslarının formalaşması problemi bütün fondşünasların, kitabxanaçıların diqqətini cəlb etmiş, bir sıra dəyərli fikirlər, elmi tövsiyyələr, mühüm praktiki və nəzəri mülahizələr irəli sürülmüşlər. Kitabxana fondunun formalaşması anlayışı 1960-cı illərin axırlarında görkəmli kitabxanaşünas Y.V. Qriqoryev tərəfindən irəli sürülmüşdür. Hələ Y.V. Qriqoryevə qədər L.B.Xavkina qeyd edirdi ki, kitabxananın komplektləşdirilməsi mütaliə rəhbərliyinin əsasını təşkil edir [3,s. 14].

Bildiyimiz kimi komplektləşdirmə prosesinin kitabxanadaxili iş fəaliyyətində mərhələlərlə həyata keçirilməsi kitabxana-informasiya resurslarının kompleks şəkildə tamamlanması baxımından komplektləşdirmənin texnologiyası mühüm əhəmiyyət kəsb edir. Bunu nəzərdən keçirərək, qeyd edə bilərik ki, komplektləşdirmə texnologiyası 4 mərhələdən ibarətdir. (Bax:şəkil-1).




*Şəkil-1*



Sənədlər axınının təhlili mərhələsində hansı sənədlərin istifadəyə yararlı olmasını, hansıların nəşr üçün planlaşdırılmasını bildirən biblioqrafik vəsaitlər haqqında təsəvvürə malik olmaq zəruri hesab edilir. Həmin vəsaitlər sənədlər axınını araşdırmağa, ən zəruri əsərləri seçməyə imkan verir. Komplektləşdirmə prosesində biblioqrafiyanın rolu o qədər yüksəkdir ki, 1950-ci illərə qədər bu prosesə biblioqrafiya işinin tərkib hissəsi kimi baxılmışdır. Komplektləşdirmə və biblioqrafiya həqiqətən ümumi və olduqca mühüm əsaslarla sənədlərin seçilməsinə istinad edir. Biblioqrafik vəsaitlər, başlıca olaraq, komplektləşdiricinin işçi aparatını təşkil edir.

İlkin seçmə mərhələsində isə sənədlər axınını xarakterizə etmək imkanı yaradan mənbələri müəyyənləşdirdikdən sonra onların seçilməsinə başlanılır.

Bu pillədə biblioqrafik vəsaitlər əsasında sənədlərin seçilməsində ilk növbədə fondun formal əlmatlərinə uyğunluğu müəyyənləşdirilir: onların əlaqəsi asanlıqla təmin edilir, daha səmərəli həyata keçirilir, yəni böyük əmək və vaxt sərf etmədən külli miqdarda qeyri-profilli sənədlər kənar edilir. Sonra gələn hər bir əlamət getdikcə sənədlərin nisbətən az kənar edilməsinə səbəb olur, lakin sənədlərin qiymətləndirilməsi üçün çox vaxt tələb edir.

Sonra ən çətin və ən məsuliyyətli olan ikinci pillə başlanır ki, bu da öz mənasına görə sənədlərin komplektləşdirmə profilinə uyğunluğu ilə bağlıdır. Bu mərhələdə komplektləşdiricidən daha yüksək ixtisas hazırlığı, geniş, siyasi, elmi, mədəni bacarıq, məntiqi təhlil vərdişləri tələb olunur. Üçüncü mərhələ sənədlərin sifarişi adlanır ki, sənədlərin təchizetmə mənbələri, üsulları və formaları bu mərhələdə təhlil edilir.

Komplektləşdirici sənədləri müəyyənləşdirdikdən sonra onun əldə edilməsi üçün müxtəlif mənbələr, üsullar, formalar və metodlar axtarır. Onun üçün bu cür təminetmə şəraitinin olması da mühüm şərtdir. Başqa sözlə ifadə etsək, kitabxana fondunun komplektləşdirilməsini təkmilləşdirmək üçün mənbələr, üsullar və formalar bir-birindən fərqlənir. Dördüncü mərhələdə yeni kitabların qəbulu nəzərdə tutulur. Biblioqrafik vəsaitlər əsasında sənədlərin sifarişlərini təşkil etdikdən sonra onların əldə edilməsinə vaxtlı-vaxtında kitabxanaya daxil olmasına nəzarət edilir. Sifariş edilən sənədlərin təchizetmə mənbələrindən daxil olması ilkin seçmə nöqteyi-nəzərindən komplektləşdirmənin yekun mərhələsi sayılsa da, sənəd-informasiya fondunun formalaşmasındakı digər prosesin, yəni fondun uçotunun başlanğıcı hesab olunur [2]. Qeyd edək ki, komplektləşdirmə üsulu ilə kitabxana-informasiya resurslarının uçotunun aparılması da mühüm bir proses hesab edilir (Bax:şəkil-2).

***Komplektləşdirmə üsulu ilə kitabxana-informasiya resurslarının uçotunun aparılması mexanizmi***




*Şəkil-2*

Yuxarıdakı sxemdən göründüyü kimi kitabxana-informasiya resurslarının komplektləşdirmə üsulu ilə uçotunun aparılması müxtəlif üsullarla: müxtəlif elm sahələrinə dair ədəbiyyatın daxil olması, istifadəyə yarasız ədəbiyyatın siyahıya alınması, aktların tərtib edilməsi, elektron inventar kitabların tərtibi, kitabxana fondunda mövcud olan ədəbiyyatların müxtəlif elm sahələri üzrə müqayisəli şəkildəvə s. həyata keçirilir.

Respublikada fəaliyyət göstərən kitabxana müəssisələrinin sənəd-informasiya resurs potensialının əsas inkişaf mexanizmini komplektləşdirmə prosesi təşkil edir. Bildiyimz kimi bu proseslər xüsusi prinsiplərə əsaslanır ki, ümumilikdə kitabxana-informasiya resurslarının komplektləşdirilməsi prinsipləri dedikdə, ümumi resursa daxil olan nəşrlərin sistematik tələbləri nəzərdə tutulur. Prinsiplərdə kitabxana-informasiya resurslarının təşkilati tərəfləri, əsas metod və üsul mexanizmləri geniş şəkildə şərh edilmədilir. Kitabxana-informasiya resurslarının komplektləşdirilməsi prinsiplərinə: elmilik, uyğunluq, sistemlilik, planlılıq və s. aid edilir.

Yuxarıda qeyd edilənlərdən belə bir nəticə çıxır ki, kitabxana-informasiya resurslarının komplektləşdirilməsi mahiyyət etibarilə ən mühüm sənədlər repertuarının əldə edilməsinə, mütaliə potensialının yüksəldilməsinə əsaslanır. Məhz buna görə də kitabxanaçılar həmişə çalışırlar ki, öz resurs bazalarını oxucuların tələbatını və marağını ödəməyə qadir olan sənədlər toplusu ilə formalaşdırsınlar. Bu da, şübhəsiz, kitabxana-informasiya resurslarının uzun müddət istifadənin səmərəliliyini təmin edən amillərdən biridir. Belə kitabxanalar sırasına ilk "Milli kitabxana" statusu alan M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasını, Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasını, Bakı Dövlət Universitetinin Elmi kitabxanasını aid etmək olar. Bu kitabxanalar həm resurs bazala-



rının həcminə, həm oxucu sayının çoxluğuna, həm sənədlərin komplektləşdirmə səviyyəsinə və müxtəlif dillərdə olan ədəbiyyatların həcm və miqdar artımına görə digər kitabxalardan xeyli fərqlənir.

**Nəticə.** Respublikanın kitabxana-informasiya resurslarının əsas mexanizmini təşkil edən komplektləşdiricinin əldə etdiyi yüksək nailiyyətlərdən istifadə olunmaqla gələcəkdə sənədlərin komplektləşdirmə optimallığını müəyyənləşdirmək, müasir tələblərə cavab verən biblioqrafik axtarış metodlarına yiyələnmək, nəzərdə tutulan sifarişləri dərindən öyrənmək məsələləri təşkil edir. Komplektləşdirici kitabxana-informasiya resurslarını onun struktur quruluşuna, oxucuların sorğularına görə öyrənməli, onların həqiqi informasiya tələbatını təhlil etməli və bunun əsasında kitabxana üçün vacib olan ədəbiyyat repertuarının yaradılmasını təmin etməlidir.

**Ədəbiyyat siyahısı**

1. Azərbaycan Respublikasının "Kitabxana işi haqqında" qanunu.- B.: Qanun, 2005.- 24 s.
2. Həsənov M. Kitabxana fondunun yaranması, formalaşması və idarə edilməsi. Dərs vəsaiti. – B.: BDU, 2004. – 143s.
3. Xələfova S. Kitabxana fondunun formalaşması: ideyası, analyışı və inkişafı.- Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodiki və təcrübi jurnal.- 2010.- № 1.- S. 14-21.
4. İsmayılov X.İ. Müasir dövrdə kitabxanaların metodik təminatının bəzi məsələləri // Kitabxanaşünaslıq – biblioqrafiya, 2012. –№ 12.-S. 9-18.
5. Столяров Ю. Н. Библиотечный фонд: учебник / Ю. Н. Столяров. – (Учебник для бакалавров).- Санкт-Петербург: Профессия, 2015. – 384 с.